AZƏRBAYCAN RESPUBLİKASININ HÜQUQİ AKTLARIN DÖVLƏT REYESTRİ

| | |
|---|---|
| Aktın növü | AZƏRBAYCAN RESPUBLİKASININ ENERGETİKA NAZİRLİYİNİN QƏRARI |
| Qəbul edildiyi tarix | 15.07.2015 |
| Qeydiyyat nömrəsi | 01 |
| Adı | Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş “Neft məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu üzrə inzibati reqlament”də və “Qaz məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu üzrə inzibati reqlament”də dəyişikliklər edilməsi haqqında |
| Rəsmi dərc edildiyi mənbə | |
| Qüvvəyə minmə tarixi | 30.07.2015 |
| Azərbaycan Respublikasının Vahid hüquqi təsnifatı üzrə indeks kodu | 120.120.180 |
| Hüquqi Aktların Dövlət Reyestrinin qeydiyyat nömrəsi | 15201507150001 |
| Hüquqi aktın Hüquqi Aktların Dövlət Reyestrinə daxil edildiyi tarix | 29.07.2015 |

Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 11 aprel tarixli 149 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Energetika Nazirliyi haqqında Əsasnamə”nin 5.10.5-ci yarımbəndini rəhbər tutaraq və “Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 iyul tarixli 1654 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Vergilər Nazirliyinin Strukturu”nda dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 2 fevral tarixli 1012 nömrəli Sərəncamının 2.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Energetika Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş “Neft məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in 2.2-ci bəndinin üçüncü abzasında verilmiş cədvəlin səkkizinci sətrində “Bakı Şəhər Vergilər Departamenti” sözləri “Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti” sözləri ilə və doqquzuncu sətrində “1400305751” rəqəmləri “1403006271” rəqəmləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Energetika Nazirliyinin 2014-cü il 26 may tarixli 3 nömrəli qərarı ilə təsdiq edilmiş “Qaz məhsullarının satışına xüsusi razılıq (lisenziya) verilməsi üçün müraciətlərin və sənədlərin qəbulu üzrə inzibati reqlament”in 2.2-ci bəndinin üçüncü abzasında verilmiş cədvəlin səkkizinci sətrində “Bakı Şəhər Vergilər Departamenti” sözləri “Vergilər Nazirliyi yanında Bakı Vergilər Departamenti” sözləri ilə və doqquzuncu sətrində “1400305751” rəqəmləri “1403006271” rəqəmləri ilə əvəz edilsin.
3. Hüquqi münasibətlər şöbəsinə tapşırılsın ki, bu Qərarın qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim edilməsini təmin etsin.
4. Bu Qərarın icrasına nəzarət nazir müavini Gülməmməd Cavadova həvalə edilsin.

**Nazir** **Natiq Əliyev**